# SƏLİMOV ARAZ BAHADUR OĞLU



1 iyun 1960-cı ildə Xocalı şəhərində doğulmuşdur. Burada orta məktəbi bitirmiş, 1978-ci ildə sovet ordusu sıralarına hərbi xidmətə çağırılmışdır. 1980-ci ildə Çelyabinsk vilayətində ordudan tərxis olunaraq Xocalıya qayıtmışdır. 1988-ci ildə başlanan qanlı hadisələr zamanı Araz da silaha sarılmışdır. 1990-cı ildə könüllü olaraq Xocalı özünümüdafiə batalyonuna yazılan A.Səlimov Xocalı faciəsi zamanı son gülləsi qalana qədər vuruşmuşdur. Yaralı halda döyüş zonasını tərk etmək üçün geri çəkilərkən erməni yaraqlıları Araz Səlimovun izinə düşərək onu vəhşicəsinə qətlə yetirmişdilər. Ağdam şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir oğlu, iki qızı var. Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 saylı Fərmanı ilə Səlimov Araz Bahadur oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.